# Əbədiyyət ünvanlı leytenant

**Əminliklə demək olar ki, o, məhz qəhrəmanlıq üçün doğulanlardandır. Özündən 3 yaş böyük olan həmyerlisi Mübariz İbrahimovun dünyaya səs salan hünəri Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Nihad Babayevi də ruhlandırmış və Vətən naminə hər cür fədakarlığa səfərbər etmişdi.**

Gənc leytenant Xüsusi Təyinatlı Qüvvələrdə təlim kursunu uğurla bitirdikdən sonra Naxçıvana xidmətə göndərilib. Daha sonra Türkiyədə snayper təlimlərində iştirak edərək uğurlu nəticələr qazanıb, ardınca Gürcüstanda dağadırmanma üzrə xüsusi kurs keçib. Nihad peşəkar kəşfiyyatçı kimi erməni, ingilis və rus dillərini bilirdi. Daim qisas hissi ilə yaşayır, kumiri Mübarizin qəhrəmanlığını təkrarlamağı arzulayırdı. 2018-ci ildə məlum Günnüt əməliyyatı zamanı artıq baş leytenant olan Nihad Babayev elə ilk fürsətdəcə Azərbaycan hərbçisinin nələrə qadir olduğunu göstərə bilib. Düz 3 gün eyni mövqedə gizlənib və erməni mayorun maşını gəlib keçəndə onu snayperlə vurub. Günnüt əməliyyatı sayəsində eyniadlı kəndlə bərabər, "Ağbulaq" yüksəkliyi, Qızılqaya və Qaraqaya dağlarından ibarət geniş ərazi işğaldan azad edilib.

...Nihad yenicə kapitan rütbəsi almışdı ki, Vətən müharibəsi başlandı. Naxçıvan XTQ-də hərbi hissə komandirinin müavini olan zabit təkidlə hərbi komandanlığa müraciət etdi ki, Qarabağa göndərilsin. Nəhayət, oktyabrın 3-də Naxçıvandan göndərilən qrupun tərkibinə onun da adı salındı.





Kapitan Babayev Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan uğrunda döyüşlərdə yaxından iştirak edərək qruplara komandanlıq edib. Bu döyüşlərdə həm avtomat, həm də zirehli texnika əleyhinə olan "RPG 7" ilə təchiz olunub.

Oktyabrın 29-da Füzuli rayonunun Yuxarı Veysəlli kəndinə yaxın Uryandağ yüksəkliyi uğrunda şiddətli döyüşlərdə şəhid olub. Həmin vaxt yaralanan hərbçi Kərim Əliyev bildirib ki, döyüş zamanı ilk o yaralanıb. Bunu komandiri Nihad Babayevə deyərək ondan özünü qorumasını istəyib. Əsgərinin yaralanmasından qəzəblənən kapitan Babayev nərilti ilə irəli atılaraq rəhbərlik etdiyi qrupdan xeyli aralıda təkbaşına düşmənin üstünə od yağdırıb. Təxminən 10 dəqiqə döyüşdükdən sonra erməni snayperinin gülləsinə tuş gəlib. Vurulandan sonra daha bir neçə dəqiqə döyüşə bilib. O, bax, belə bir igid idi.

Yaxın qonşum olan tanınmış şair, Prezidentin fərdi təqaüdçüsü Əşrəf Veysəlli ilə söhbətlərimin birində dedim ki, sizin kənd uğrunda döyüşlərdə Nihad Babayev adlı kapitan qəhrəmanlıqla həlak olub. Dedi, bilirəm, Allah ona və bütün şəhidlərimizə rəhmət eləsin. "Əvvəllər kəndimizin ətrafında bir-iki dağ vardı, indi o ərazilər neçə-neçə şəhidin hər birinin adına hünər dağları ilə əhatələnib. Qələbədən sonra yazdığım şeirləri elə Nihad Babayevin və bütün şəhidlərimizin ruhuna bağışlayıram.

**Biz vətənə can demir,**
**canı qurban deyirik,**
**Yüzillik düşmənini 44 günə əyirik!**
**Bu şanlı qələbəmiz şər üstündə**
**xeyirin,**
**Sərt qışın üzərində yazın qələbəsidir.**

Şəhidlərimiz şər üstündə xeyirin qələbəsini təmin edənlərdir".

Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin Sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra) adına layiq görülən Nihad Babayev ardınca "Vətən uğrunda", Xocavəndin və Füzulinin azad olunmasına görə medalları ilə təltif edilib.

Ailəsi Nihadın əşyalarından ibarət ev-muzeyi yaradıb. Orada ona məxsus şəxsi əşyaları, saysız-hesabsız sertifikatları, fəxri fərmanları, orden və medalları yer alıb. 2021-ci ildə Biləsuvar rayonu Xırmandalı kənd Uşaq İncəsənət Məktəbinə Vətən Müharibəsi Qəhrəmanı Nihad Babayevin adı verilib.

Bəli, o ölməyib, əbədiyyətə qovuşub.

***Ə.ƏLİYEV***
***XQ***